# Kukla Teatrının yubileyi qeyd olundu

## Nazir Əbülfəs Qarayev: "Kollektivin üzvləri fədakar insanlardı"

**Dekabrın 28-də Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının 85 illik yubileyi qeyd edildi. Mədəniyyət və incəsənət xadimlərinin, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi mərasimi giriş sözü ilə mədəniyyət və turizm naziri Əbülfəs Qarayev açdı. Nazir əsası 1931-ci ildə dram aktyoru Molla Ağa Bəbirli tərəfindən qoyulan bu teatrın 85 illik şərəfli bir yol keçdiyini bildirdi, qazandığı uğurlardan danışdı. Kollektivin İtaliyada, Yunanıstanda, Mərakeşdə, Hindistanda, Rusiyada və başqa ölkələrdə keçirilən beynəlxalq festivallarda əldə etdiyi nailiyyətlərə toxunan Əbülfəs Qarayev Azərbaycan teatrının dünyaya inteqrasiya olunmasının vacibliyini qeyd etdi. Mədəniyyət və turizm naziri Azərbaycan Dövlət Kukla Teatrının təşəbbüsü ilə Bakıda keçirilən beynəlxalq festivalların mühüm mədəni hadisəyə çevrildiyini xatırlatdı, bu tədbirə marağın artdığını bildirdi.**



Son illər ölkədəki bütün teatrların maddi-texniki bazasının gücləndiyini, binaların yüksək səviyyədə təmir olunduğunu qeyd edən Əbülfəs Qarayev Azərbaycan Dövlət Kukla Teatrının da daim diqqət və qayğı ilə əhatə olunduğunu söylədi. Kollektivin üzvlərini fədakar insanlar adlandıran nazir onlara gələcək yaradıcılıq işlərində uğurlar arzuladı, teatrın bir qrup əməkdaşına "Fəxri mədəniyyət işçisi" döş nişanı və diplomlar təqdim etdi.

Teatr Xadimləri İttifaqı İdarə Heyətinin sədri, Xalq artisti, professor Azar Paşa Nemət rəhbərlik etdiyi yaradıcılıq təşkilatı adından kollektivə təbriklərini çatdırdı. Sonra kollektivin bir neçə üzvünə Teatr Xadimləri İttifaqının diplomları təqdim edildi.

**Yubiley mərasiminin bədii hissəsi Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının 85 illik yaradıcılıq yolunu əks etdirən video-çarxın nümayişi ilə başlandı. Kollektivin üzvləri teatrın repertuarında yer alan tamaşalardan parçalar oynadılar. Teatrın nəzdindəki "Oyuq" studiyasının balaca aktyorları öz ifaları ilə yubileyə xüsusi gözəllik qatdılar.**

**Turan İSMAYILZADƏ**

Ədalət.2016.30 dekabr.-S.3.